Azərbaycan Respublikası Vəkillər kollegiyasının Sədri Cənab Anar Bağırova

Xırdalan şəhər Hüseyn Bəy Zərdabi küçəsində yaşayan Savalanov Sarvan Azər oğlu tərəfindən

050-643-62-59

# TƏŞƏKKÜR MƏKTUBU

Hörmətli Anar müəllim !

Yazmaqda səbəbim sizə ailəmiz adından təşəkkür etməkdir. Çünki sizin kollegiyanın vəkili Elçin Əhmədov bizə çox böyük bir kömək etmişdir. 2023-cü ilin dekabr ayında biz əlimizdə olan pulla biraz da dost tanışdan borc alaraq Xırdalanda sənədsiz bir ev almışdıq. O evə köçüb biraz da təmir eləyib əl gəzdirdik evə. Axır ki kirayə yaşamaqdan canımızı qurtarmışdıq deyə sevinirdik. Amma 1 ay keçməmiş bizim evə bir qadın gəlib adının Zəhra olduğunu Cəlilabaddan gəldiyini və bu evin ona məxsus olduğunu bildirdi. Biz nə edəcəyimizi bilmirdik o qadın iki nəfərlə bizim evə yerləşdi və çıxmayacağını bildirdi. Bu zaman həm o qadın həm də biz Abşeron Polis idarəsinə getdik. Polislər bizə dedilər ki bu polislik iş deyil məhkəməyə müraciyət eləyin. Bizim bütün əlacımız kəsilmişdi çünki o qadın uşaqlarıyla bizim evdən çıxmırdı və evi aldığımız pul da batmışdı. Bizə Asan xidmətdə işləyən ailə dostumuz Sevinc xanım dedi ki təcili olaraq bir vəkil tapın. Bizi Nərimanovda olan 20 saylı vəkil bürosunda Elçin Əhmədovun yanına göndərdi. Biz həmin yerə gedin Elçin bəylə görüşüb bütün nə varsa ona bildirdik. Onunla müqavilə bağlayıb evə yollandıq. Ondan sonra Elçin bəy Abşeron polis idarəsinə gedib bir neçə ay orada bizim üçün hüquqi yarım elədi. Sonda artıq bu problem öz həllini tapdı məlum oldu ki həmin evin Zəhra adlı qadından sonra 3 nəfərə də maklerlər satıb. Artıq bizdən heç kimin şikayəti yoxdur və polis idarəsində bizə bildirdilər ki, bizdən qabaq hansısa maklerlər o evi gizlin şəkildə başqasına satıblar. Ona görə də artıq bizlik bir şey yoxdur. Biz o vaxtdan artıq tam rahat şəkildə öz evimizdə yaşayırıq. Biz ailəmiz adından həm sizə həm də Elçin bəyə təşəkkür edirik ki bizi bu problemdən qurtardı. Ailəmiz adından sizə uğurlar arzu edirik.

Savalanov Sarvan

18 Noyabr 2024

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 4453
«21» 11 2024